Şiəlik və Sufilik arasında əlaqə

Müqəddimə

Həqiqətən həmd (şükür və tərif) yalnız Allaha məxsusdur! Biz Ona şükür və tərif edir, Onu köməyə çağırır, Ondan bağışlanma və bizi haqq yoluna yönəltməyi diləyirik. Nəfslərimizin şərindən və pis əməllərimizdən qorunmaq üçün yalnız Ona pənah aparırıq. Aləmlərə rəhmət olaraq göndərilən peyğəmbərimiz Muhəmmədə *(sallallahu aleyhi və səlləm)*, ailəsinə və səhabələrin hamısına Allahın salamı və xeyir duası olsun. Oxuculara təqdim olunan bu risalə Seyfullah Ərdoğmuşun "Əhli sünnət və oniki imam" (səh 91-125) kitabının bir hissəsindən edilmiş tərcümədir.

Fuad Burhan

Seyfullah Ərdoğmuş yazı: "İslamın ilk əsrində ərəblər arasında təsəvvuf (sufi) deyilən bir anlayışın olmadığı, bunun ancaq ikinci əsrin ortalarında meydana gəldiyi və təmsilçilərinin də əcəmlər olması bilinən bir həqiqətdir. Beləki, İslam tarixində sufilik cərəyanının bariz təmsilçiləri olan Kuşəyri, Kəlabazi, Suhrəverdi, Qəzali, Bistami, Tusi, Təbrizi, Cəlaləddin Rumi və s. şəxslərin İranlı olmaları bir həqiqətdir. Bu da istər-istəməz sufiliyin şiəliklə bağlantısı məsələsini meydana gətirməkdədir. Sufiliklə şiəliyin əlaqələri məsələsini Əbdurrahmən Əbdulhaliqin kitabından edilmiş tərcümə ilə təqdim edirik.

İlk Sufilər və Şiəliklə əlaqələri

Şiə müəllifi olan Dr. Kamil Mustafa əş Şeybi "əs Sılatu Beynət-Təsavvuf vət təşəyyu" adlı kitabında İslamda "sufi" adını alan ilk üç adamın Cabir ibn Həyyan, Əbu Haşim əl Kufi və Əbduk əs Sufi olduğunu qeyd edərək aşağıdakıları yazır:

"Cabir ibn Həyyan imam Cəfər əs Sadiqin tələbəsi və köləsi idi. Şiələr Cabir ibn Həyyanı onların böyüklərindən və imam adından danışan bir "bab" olaraq qəbul edirlər. Onun şiəliklə bağlı kitablar yazdığını iddia edirlər. Onun zahidlikdə xüsusi bir metodu olmuşdur. "İhbarul uləma bi əxbəril uləma" kitabının müəllifi olan əl Qifti Cabir ibn Həyyanın bir çox fəlsəfi elmlərə sahib olduğunu, Haris əl Muhasibi, Səhl ibn Tustəri kimi batini elmlərə meyl etdiyini, kimya elmində mahir olduğunu qeyd edir.

İkinci adam olan Əbu Haşim əl Kufi Ramlədə sufilər üçün ilk dəfə təkkə inşa edən adam olmuşdur. Rahiblər kimi yundan uzun paltar geyinər, xristianlar kimi hülul və ittihadı müdafiə edərdi. Xristianlar hülul və ittihadı sadəcə Hz İsa

üçün caiz olduğunu dedikləri kimi, Əbu Haşim də bunu özü üçün də caiz görmüşdü. Əbu Haşim əl Kufi haqqında məlumatlar azdır. Bununla belə bu xəbərlər Cabir ibn Həyyana dair xəbərlər kimi yekun fikir ifadə etməyə imkan verir. Bunların hər ikisi bir-birinin müasiri idilər. Şiələr Cabiri təsəvvufun atası olaraq qəbul edir. Cəfər əs Sadiqin onun haqqında belə dediyini nəql edirlər: "Əqidəsi həqiqətən batildir. Təsəvvuf adında bir məzhəb uydurmuş və çirkin əqidəsi üçün bir yol açmışdır.

Üçüncü adam olan Abduk əs Sufi isə Kufədə qurulmuş yarı şiə, yarı sufi olan bir firqənin qurucusu olaraq qeyd edilməkdədir. Abduk əs Sufi zahid, abid olub, hicri 210-cu ildə Bağdadda vəfat etmişdir və ilk sufi adı verilən adam olaraq tanınır. O vaxtlarda bu ad Kufədə bəzi şiələr və İsgəndəriyyədə olan bəzi üsyançılar üçün istifadə olunurdu. Abduk əs Sufi Bişr ibn Harris,əs Səri Səqatidən əvvəl yaşamış məşhur olan şeyxlərdən sayılırdı. Dünyanın bütünlüklə haram olması, ədalətli imamlara tabe olmağın vacibliyi məsələsini iddia etmiş, bu imam olmadan dünyanın və onun nemətlərinin haram olacağı iddiasını etdiyi bildirilir. Yekun olaraq sufi kəlməsinin ilk olaraq Kufədə işlədilməsi, orada olan zahidlərin yun paltarlar geyinməsi, sufiliyin isə şiəliklə sıx əlaqəsi olduğunu göstərməkdədir."[1]

Sufiliklə şiəliyin ortaq tərəfləri

Təsəvvuf (sufi) təriqətlərinə və şiə məzhəbinin həqiqətlərinə vaqif olan bir insan hər iki firqənin eyni qaynaqdan gəldiyinə, nəticədə eyni qayəyə çalışdıqlarına, hər iki tərəfin ardıcıllarının daşıdığı inanc və etiqadın ümumən ortaq olduğuna şahid olmuş olar.

Xüsusi elmlər iddiası

Şiələri digər müsəlmanlardan fərqləndirən əsas xüsusiyyətlərdən biri onların imamlarında xüsusi elmin olması iddiasıdır. Bu elmləri Hz Əliyə nisbət edir, onu dinin sirrlərinə sahib olan şəxs adlandırır və digər müsəlmanlara açılmayan sirrləri Peyğəmbərin *(sallallahu aleyhi və səlləm)* yalnız ona açdığını iddia edirlər.

Hz Fatimə və Hz Əli övladları olan imamların bu elmlərə sahib olmaları, onların qeybi bilmələri, xəta və unutqanlıqdan məsum olmaları, dini imamlardan başqa heç kəsdən alınmayacağı, Quranın sirrlərinin və İslam həqiqətlərinin sadəcə imamların yanında olduğunu iddia edirlər.

İmamların "Fatimə Quranı" dedikləri xüsusi bir kitaba sahib olduqlarını və bunun da indiki Qurandan üç dəfə böyük olduğunu, bütün elmlərin içində yazılı olduğu "Cifr"-ə sahib olduqlarını iddia edirlər. Həmçinin, yalnız imamların Quran ayələri ilə bağlı elmlərə sahib olduqlarını,təfsiri yalnız onların bildiklərini iddia edirlər.

[1] Dr.Kamil Mustafa əş Şeybi "əs Sılatu Beynət-Təsavvuf vət təşəyyu", səh 272

Sufilər də eyni yolu gedirlər. Başqa insanlara qarşı öyündükləri və dillərinə düşən işlərin başında ancaq öz təriqətlərinə mənsub olmayan insanların əldə edə bilməyəcəyi bir sıra elmlərə sahib olduqlarını iddia edirlər. Digər müsəlmanların elmlərini, hətta elmləri yanında peyğəmbərlərin elmlərini belə xor görürlər. Məşhur alimlərindən Əbu Yəzid əl Bistami belə deyir:

"Peyğəmbərlərin sahilində gözlədikləri bir dənizə daldıq. Siz elminizi ölülərdən aldız, biz isə elmimizi ölməyən diri Allahdan aldıq. Siz filankəs bizə filankəsdən nəql etdi deyirsiz. Hanı o filankəs soruşsan, öldü deyəcəklər. Biz isə qəlbim mənə Rəbbimdən nəql etdi deyirik."[1]

Bu şəkildə təsəvvüfçülər yalnız özlərinin "kəşf və lədun" elminə sahib olduqlarını, ancaq onlara tabe olanların onlardan faydalana biləcəklərini iddia etdilər. Hətta, şeyxlərdən "lədun"elmi alması üçün müridin qəlbinin şeyxinin qəlbinə bağlamalı olduğunu, şeyxin də bu elmi Rasulullahdan *(sallallahu aleyhi və səlləm)* alması üçün müridin qəlbini ona bağlaya biləcəklərini iddia etdilər. Bunun adına onlar "rabitə" deyirlər. Sufilər Quran və hədislərin batini təvillərini xüsusi elmlərinin mənbəyi, qaynağı etmişlər. Çünki, bəzən bu təvilləri Allahdan, bəzən mələkdən aldıqlarını, bəzən də ilham olduqlarını iddia etmişlər. Eyni zamanda batini elmlərini Quranda olan hərf sirrlərini bilməyə yetdiyini, bu elmləri Xızırdan aldıqlarını, hətta bəzən bunun birbaşa lövhu məhfuzdan aldıqlarını iddia etmişlər.

Şiələr də imamları üçün eyni şeyləri iddia edirlər. Onların qeybi bildiklərini, bir yarpağın belə onlardan xəbərsiz yerə düşmədiyini, bütün keçmiş və gələcəkdə olanları bildiklərini iddia etmişlər. Sufilər də eyni şeyləri özləri üçün deyirlər. Batini elm məsələsində hər iki firqə eyni düşüncədədir. Bu mənada onlar imamlar haqqında ifrata gedərək, ilah kəlməsinin daşıdığı mənaları imamlarına nisbət vermişlər. Onlara görə imamlar kainatın bütün zərrələrini idarə edər, istədiklərini cənnətə və ya cəhənnəmə göndərə bilərlər. İsmailiyyə və Nusayriyyədə olduğu kimi rafizilər Allahın nurunun imamlara hülul etdiyini söyləyirlər. Onların dərəcəsini peyğəmbərlər və bütün mələklərin dərəcəsindən üstün hesab edirlər.

Xomeyni kitabında yazır: **"İmamlarımız elə bir məqama sahibdirlər ki, ona nə mukərrəb (yaxınlaşdırılmış) bir mələk, nə də bir peyğəmbər yetişə bilməz. İmamlar bu kainat haqqında qərarlar verirlər."**[2]

Eyni inancları sufilər almış və övliya dedikləri adamlar haqqında istifadə etmişlər. Rafizilər imamlara uluhiyyət və rububiyyət sifətləri verdikləri kimi sufilər də övliya dediklərinə uluhiyyət və rububiyyət sifətləri nisbət etmişlər. Kainata hakim olduqlarını, qeybi bütünlüklə bildiklərini, dünyanın bütün işlərinin iradələri daxilində olduqlarını, məqamlarına mələklər və peyğəmbərlərin yetişə bilməyəcəyini demişlər. İstəyən Əhməd Dədənin "ət Tuhfətul bəhiyyə fit tariqatil məvləviyyə" kitabına [3] baxa bilər. Orada belə nümunələr çoxdur.

Rafizilər imamət məqamından sonra gələn və onların vəkilləri olmuş naiblər məqamını qəbul etmiş, sufilər də eyni ilə "Vəliyyəyi azam"məqamını qəbul etmiş,

---

[1] "ət Təsavvuful İslami", səh 77

[2] "Hukumətul İslamiyyə" səh 54

[3] səh 29,37,41,56 və s.

ona “qutb” adını vermişdilər. Müqəddiməsində məşhur sosioloq, tədqiqatçı alim İbn Xəldun (öl.mil 1407) yazır:

“Kəşf və duyğulardan söz edən sufilər bu işə çox girişirlər. Bir çoxu hülul inancına etiqad etmiş, qeybi işlərə dalmışdır. Eyni zamanda bir çoxu hülul və “vəhdəti vücud” inancına etiqad etmişlər. ”əl Məqamat” kitabında əl Hərəvinin yazdığı kimi bu baradə kitablarına səhifələr dolu hekayələr yazmışlar. Ibn Ərabi, ibn Səbb, ibn Əbu Vasil, ibn əl Afif, ibn əl Fərid bu sahadə kitablar yazmışlar. Bunların sələfi də hülulda və imamların ilahlığına inanan rafizilərdən İsmailiyyə (Batiniyyə) mənsublarına qarışmışlardı. Hər iki məzhəb bir-birinə qarışmış, sözləri və inancları bir-birinə bənzəmişdi. Sufilərin sözlərində “qutb” inancı ortaya çıxmışdı ki, bu ariflərin başı mənasını verir. Ölənə qədər heç kəsin onlara mərifətdə yetişə bilməyəcəyi qənaətindədirlər. Onlardan biri öləndə məqamına irfan əhlindən olan biri varis ola bilər. İbn Sina “İşarət” kitabının təsəvvüf bölümündə buna işarə etmiş və belə demişdir: “Haqq (Allah) elə ucadır ki, şəriət ancaq bir adamın əlində olar və ona ancaq ondan sonra gələn adam varis ola bilər. (Yəni, şəriətdə söz sahibi hər kəs deyil, ancaq bir adam ola bilər) Halbuki, belə bir söz nə əqli, nə də şəri bir dəlilə əsaslanmır. Sadəcə irəli sürülən bir iddiadır. Bu inanc rafizilərin “imamlar yalnız vərasətlə ola bilər” iddiasına bənzəyir. Bu zümrənin rafizilərin etiqadını necə oğurladığını və mənimsədiyini görürsüz?! Sonra şiələrin naiblər haqqında inancı kimi qütb, sonra da sırası ilə abdalın olduqlarını söylədilər. Hətta, təriqətlərinə və inanclarına təməl və əsas olması üçün Hz Əliyə təsəvvüf libası geydirmələri də bunun üçündür. Halbuki, səhabələr içərisində Hz Əlinin özünə məxsus nə məzhəbi, nə də təriqəti olmamışdı. Bəlkə də Hz Əbu Bəkr və Hz Ömər insanlar arasında Rasulullahdan *(sallallahu aleyhi və səlləm)* **sonra ən zahid və abid adamlar olmuşlar. Əslində bütün səhabələr dindarlıq, zahidlikdə bir nümunə idilər. İsmailiyyə firqəsinin imamət baradə inancları ortaya çıxınca İraqda sufilər bunu onlardan mənimsəyərək, zahir və batin arasında bir sintez apardılar. Allahın mərifətini öyrənmək üçün qütb inancı olmasını iddia etdilər. Çünki, qütb onlara görə ariflərin başıdır. Zahirdə onu imama bənzətmişlər. Şiələrdə olan naiblərə paralel əbdallar ocağı təsis etmişlər. Fatimilər baradə əvvəlki sufi şeyxləri bir söz deməzkən, sonralar onlar haqqında şiələrin dedikləri kimi demişlər. Bütün bunları rafizilərdən və onların kitablarından mənimsəmişdilər.”**[1]

Bu şəkildə ibn Xəldun gizli elm, vilayət mərtəbəsi, hülul və ittihad baradə şiəlik ilə sufiliyin bənzərliyini qeyd etmişdir. Sufi ibn Ərabi “Futuhatu məkkiyyə” kitabında yazır: **“Hz Əli Allahın verdiyi və başqalarının bilmədiyi elm sahiblərindəndir.”**[2]

İbn Acibə də “İkazul himən fi şərhil hikəm” kitabında yazır: **“Təsəvvüf elmi vəhy və ilham yolu ilə Rasulullah** *(sallallahu aleyhi və səlləm)* **tərəfindən qurulmuşdur. Cəbrayıl əvvəl şəriəti gətirdi, sonra həqiqəti gətirdi. Onu da sadəcə bəzilərinə verdi. Təsəvvüfü ilk öncə ortaya çıxaran və ondan söz edən Hz Əlidir.”**[3]

---

[1] ibn Xəldun “Müqəddimə” səh 875-877

[2] səh260

[3] səh 15

Dr. Kamil Mustafa əş Şeybi "əs Sılatu Beynət-Təsavvuf vət təşəyyu" kitabında yazır: **"Sufiliyə İsmailiyyədən başqa inanc da daxil olmuşdur. O da naiblər inancıdır. Bunlar 12 adamdır və huccəcə (hüccətlər) deyə adlanırlar. İmamın varlığı vəya yoxluğunda dəvəti onlar aparırlar. Bunlar müqəddəsdir və sayları da sabitdir, dəyişməzdir."**

Bu şəkildə elmdə, dəvətdə və ilahi dəstəkdə hüccət (əbdal) imam kimidir. Əbdal və qütb inancı buradan sufiliyə keçmişdir. İbn Ərabi "Futuhatu məkkiyyə" də İsmailiyyə haqqında Məkrizinin dediklərinin eynisini sufilər haqqında deyir. Misal olaraq, naiblər haqqında **"hər zaman 12 naibdirlər.12 bürc sayı kimi nə azalır, nə də artır."**[1]

Sufilərin müqəddəs saydıqları bu məqamları İsmailiyyədən aldıqlarını sübut etməyə təkcə ibn Ərabinin bu sözü kifayətdir.

Dinin zahiri ve batını vardır inancı

Dinin həm zahiri, həm də batini mənası olması haqqında şiə və sufilərin etiqadları eynidir. Zahiri məna avam xalqın nasslardan anladığı zahiri mənadır. Batin isə nasslardan qəsd edilən və həqiqi elm qəbul ediləndir ki, onu ancaq imamlar və övliyalar bilirlər. Məsələn: "namaz qılın və zəkat verin" ayəsində zəkat sözündən məqsəd "şəri ölçü və şərtləri bəlli olan zəkat mallarınızdan verin"deməkdir. Ayənin zahiri mənası budur. Şiə və sufilər nassların batini mənalarının imamlar və vəlilərə nazil olacağı iddiasındadırlar. Şiələr Quranın ləfzini Peyğəmbərin, *(sallallahu aleyhi və səlləm)* təfsirini Hz Əlinin gətirdiyini, mənasını isə ancaq imamların bildiyini iddia edirlər. Bunu məntiqli göstərmək üçün də Quranın bir zahiri, bir də batini mənası olduğunu, zahiri mənasını avamın, batini mənasını isə imam və övliyaların bildiyini iddia edirlər.

Onlara görə "namaz qılın" sözündən məqsəd məsum imama beyət etmək, "zəkatı verin" sözündən məqsəd isə imama qarşı səmimi və itaətkar olmaq deməkdir. Hər iki tərəf də iddia etdiklərini haqqlı göstərmək üçün Quran ayələrini hava və həvəslərinə görə izah etmişlər. Sufilər nassların batini tərzdə açıqlanmasına "həqiqət", zahiri mənada açıqlanmasına isə "şəriət" demişlər. Həqiqəti övliyalara, şəriəti isə avama nisbət etmişlər. Bu yolla onlar Quran və hədis nasslarını oyuncağa çevirmiş, batil fikirlərinə uysun deyə onları istədiyi şəkildə izah etmişlər.

Quranda "Tin" (əncir) sözünün Rasulullah, "zeytun"-un Hz Əli, "Turi sinin" in Hz Həsən, "Həzəl bələdil əmin" sözünün Hz Hüseyn ilə nə əlaqəsi ola bilər?! Eyni ilə "məracəl bəhreyn" ayəsində ki, qəsdin Hz Əli və Hz Fatimə ilə nə əlaqəsi ola bilər?

Həmçinin, "Yəxrucu minhuma əl lulu vəl mərcan" (onlardan mirvari və mərcan çıxır) ayəsində ki, məqsədin Hz Həsən və Hz Hüseyn olması necə qəbul edilə bilər? əl Huvansari (şiə alimi) bu kimi təvillərdən bəzi nümunələr nəql etmişdir. "**Məsələn: dəstamaz-imama bağlılıqla, təyəmmüm – hüccət olan imam**

[1] "Futuhatu məkkiyyə"c.2,səh 9

olmadığı müddətdə dini onun yerinə məzun olan adama, qüsl - əhdi təzələməklə, zəkat – dini öyrənərək nəfsi təmizləməklə, Kəbə - peyğəmbərlə, qapı – Hz Əli ilə, miqat və təlbiyyə - çağırana cavab verməklə, Kəbəni yeddi dəfə təvaf etmək – yeddi imama tərəfdar olub, onlara bağlanmaqla və s. mənalarla izah edilmişdir."[1]

Bilindiyi kimi İsmailiyyə firqəsi imam olmamalarına baxmayaraq, naiblərin Allahın dəstəyini aldıqlarını, imamların sayı yeddi olduğu kimi, hər zaman bunların sayının on iki olduğunu və dünyanı onların idarə etdiklərini demişlər.[2] İsmailiyyə firqəsindən Əbu Yaqub əs Sicistani **Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **elm mirasının vasiyə, ondan da imama, ondan da hüccətə keçdiyini iddia etmişdir.**[3]

O başqa yerdə yazır: **"Bu elmlər həbəşi vəya hindli olsun, sahibinə ancaq riyaziyyat ilə çata bilər."**[4]

Makrizi yazır: **"İmamın varlığı ruhani aləmdədir. Ona mərifət və riyaziyyat ilə yetişmək olar."**[5]

Şərqşünas Qoldzinger Mövlananın bu sözlərini sitat olaraq kitabında nəql etmişdir: **"Bunu bil ki, Quranın ayələri asandır. Ancaq, asanlığına baxmayaraq, arxasında çox gizli və bağlı bir mənalar olmaqdadır. Bu gizli mənaya üçüncü bir məna bağlıdır ki, güclü anlayış və dərin qavrama onun qarşısında aciz qalır. Dördüncü mənanı bənzəri olmayan Uca Allahdan başqası əhatə edə bilməz. Bu şəkildə ardı – ardına yeddi mənaya yetişirik. Ona görə də övladım! Şeytanların "Adəm (əleyhissəlam) ancaq palçıqdan yaranan məxluqdur" dedikləri kimi zahiri məna ilə kifayətlənmə. Quranda zahiri məna Adəmin bədəninə bənzəyir. Ondan gördüyümüz gizli ruhu deyil, zahiri şəklidir."**[6]

Nassların zahiri və batini mənaları olduğu inancına dair Dr. Əbul Əla əl Afifi "ət Tasavvuf vəs – Səvratur-Ruhiyyə fil-İslam" kitabında yazır**: "Qaynağı etibarı ilə şəriətin zahiri və batini mənasının olması iddiası İslamın əvvəllərində olmamışdır. Hər şeyin zahiri və batini olduğu kimi Quranın, hətta Quranda hər ayənin və hər kəlmənin zahiri və batini mənasının olması fikri şiələr tərəfindən başladılmışdır. Şiələrin iddiasına görə Rasulullah** *(sallallahu aleyhi və səlləm)* **batin elmini (gizli elm) Hz Əliyə öyrətmiş, o da öz varislərinə bu elmi ötürmüşdür. Sufilər də bu tərz təvil yoluna getmiş və şiələrin termin və metodlarını mənimsəmişdilər. Bütün bunlarla şiəlik və təsəvvüf arasında olan sıx əlaqələr və oxşarlıqlar aydın olmuş olur."**

İmamların Allahın görünən təzahürü və təmsilçisi olduğunu batinilər dediyi kimi bəzi sufilər də açıq şəkildə özlərinin Allah olduqlarını demişlər. Bu inancın qulati şiələrdən başladığı, İsmailiyyə firqəsinin bunu təkmilləşdirib, fəlsəfəsini yaratdığı və sufilərin də bunu onlardan əxz etdiyi bir həqiqətdir.

---

[1] əl-Həvansari, "Ravdatul-Cənnət", səh 731
[2] "Hutatul-Makrizi, c.2, 231, səh 233
[3] Əbu Yaqub əs-Sicistani, "Kəşful-Mahcub fi şərhi Qasidətil-Curcani", səh 65
[4] Əbu Yaqub əs-Sicistani, "Kəşful-Mahcub fi şərhi Qasidətil-Curcani",səh 92
[5] "Hutatul-Makrizi, c.2, səh 233
[6] Qoldzinger, əl-Əqidə və 'şəria fil-İslâm, səh 216

Qəbirlərin müqəddəsləşdirilməsi və ziyarətgah edilməsi

Şirkə vasitə və qapı olmaması üçün İslam qəbirlər üzərində tikilən məbədləri və binaları sökdüyü halda qəbir üzərində bina və məscid tikməyi ilk dəfə şiələr başlamışlar. Peyğəmbər *(sallallahu aleyhi və səlləm)* mütəvatir hədisdə belə buyurmuşdur: **"Allah yəhudi və xristianlara lənət eləsin. Onlar peyğəmbərlərinin və salehlərin qəbirlərini məscid etdilər."**

Həmçinin, digər mütəvatir hədisdə Əbul-Həyyac əl-Əsədidən nəql olunmuşdur: **"Hz Əli xilafəti zamanında bir gün mənə belə dedi: "Ey Əbul-Həyyac! Vaxtı ilə Peyğəmbərin** *(sallallahu aleyhi və səlləm)* **məni vəzifələndirdiyi bir iş ilə indi mən səni vəzifələndirmək istəyirəm. Get və yıxmadığın bir timsalı, (şəkil, büt) yerləbir etmədiyin hündür qəbir buraxma!"**[1]

Ancaq şiələr Hz Əli, Hz Hüseyn və digər imamların qəbirlərini yüksəltmiş və üzərində bina, məscidlər tikmişlər. Qəbirlər üzərində bina tikmək, qəbirləri müqəddəsləşdirmək və bunu şüar etmək adəti hicri üçüncü əsrin əvvəllərində olmuşdur. Abbasi xəlifələrindən bəziləri şiələrin uydurduğu və yüksəltdiyi bu qəbirləri yıxmağa başlamış və bunlara qarşı çıxmışdılar.

İbn Kəsir "əl bidayə vən nihayyə" kitabında **Abbasi xəlifəsi əl Mutəvəkkikin hicri 236-cı ildə Hz Hüseynə nisbət edilən qəbri və ətrafındakı ona bağlı olan bütün tikililəri sökdürdüyünü və üç gündən sonra orada kimi taparsa öldürüb, qəbrə qoyacağını elan etdiyini, bir neçə gündən sonra isə orada heç kəsin qalmadığını və oranın boş əraziyə döndüyünü yazır.**[2]

Ondan sonra da sufilər eyni yolu izləyərək, qəbirləri ziyarət etməyi, ətrafında təvaf edib, daşı, torpağı ilə təbərrük etməyi, qəbirdə yatan ölülərdən yardım istəməyi özlərinə şüar etdilər. Sufilərin məşhurlarından Maruf əl Kərhinin qəbrini özlərinə ziyarətgah edərək, "Marufun qəbri sınanmış bir ocaqdır" dedilər. Hətta, sufilər bu qəbirləri bina edib yüksəltməyə, onları ucaltmağa, ziyarət etmək üçün insanları təşviq etməyi, ətrafında təvaf etməyi, qəbri müxtəlif əski və parçalarla bəzəməyi, daşı, torpağı ilə təbərrük etməyi, Allahın əvəzinə qəbirdə yatandan mədət və hacət istəməyi dinlərinin bir təməli və əsası etdilər. Bu şəkildə onlar İslamın yasaq etdiyi bir əməli dirçəltmiş və cahiliyyə adətlərini ihya etmişdilər.

İslam dövlətini yıxmaq və şiə dövləti qurmaq

Bu baradə sufilərin məşhurlarından olan Həllacı nümunə çəkəcəyik. Dr. Kamil Mustafa əş Şeybi "əs Sılatu Beynət-Təsavvuf vət təşəyyu" kitabında yazır:

"Həllac ilə şiəlik arasındakı əlaqə onun öz sözlərinin şiələrin sözləri ilə eyni olması ilə qalmamış, bu əlaqə bütün şiə məzhəblərinin boyasına təzahür etmişdi.

---

[1] Müslim 1/666 hədis 969, Əbu Davud 3/548 hədis 3218, Titmizi hədis: 1049, Nəsai 4/88, Əhməd "Müsnəd" 1/96, Beyhəqi 4/3, ibn Əbu Şeybə; 6548

[2] ibn Kəsir "əl bidayə vən nihayyə" c.1,səh 315

Hülulilik cərəyanı ilə şiələrin öndəri olmuş və hicri dördüncü əsrin əvvəllərində yeni bir qulat axımın rəhbəri olmuşdur. Həllac deyirdi: "Heç bir zaman imamlardan birinin məzhəbini tam olaraq almadım. Hər məzhəbin ən çətin tərəflərini əxz elədim. İndi də beləyəm." Həllac hicri 138-ci ildə Kufədə öldürülən və qulat şiələrdən olan Əbul Xəttabın bənzəridir. İmami şiələri ilə olan əlaqəsini göstərmək üçün Tusinin, Həllacın Qum şəhərinə getməsini deməsi kifayətdir. Şiə alimlərindən olan Əbul Həsən Növbəxti ilə Həllac arasında qohumluq olduğu kimi Həllacın özü Növbəxtini dəvət edir və ona "Mən imamın elçisi və vəkiliyəm" deyirdi."[1]

əş Şeybi eyni yerdə davam edərək yazır: **"Öldürüldüyü zaman Həllaca yönəldilən ittihamlardan biri də Həllacın həcc ziyarəti üçün Məkkəyə getməyi inkar etməsi, onun yerinə adamın evdə xalis niyyət ilə oturub, ora yönəlməsi kifayətdir deməsi idi. Səfərin sıxıntılarına qatlanmadan adamın evində bu işi yaxşı niyyətlə edə biləcəyini iddia edirdi. Qazi ət Tənuhi bunun Həllac məktəbində məşhur bir şey olduğunu deyirdi. Həllac ilə şiəlik arasındakı olan əlaqəni bu misal da isbat etməkdədir. Qərmətilər hicri 318-ci ildə Məkkəyə hücum etmiş və Həllacın öldürülməsindən 9 il sonra Məkkəni dağıdaraq, "qara daşı" söküb aparmışdılar. Beləcə onlar Həllacın məzhəbini tətbiq etmişdilər."**[2]

Qazi ət Tənuhi Həllacın öz adamlarından birinə belə bir xəbər göndərdiyini nəql edir: "**Yer və göy əhlinin qibtə etdiyi şanlı Fatimi dövlətinə dəvət etmə zamanı gəlib çatmışdır. Haqqın pərdəsinin açılması və ədalətin bərpa olunması üçün insanları Xorasana getməsi üçün dəvət elə."**[3]

əl Xatib Bağdadi və ibn Kəsir İran əhlinin Həllacla "Əbu Abdullah əz Zahid" ləqəbi ilə yazışdıqlarını qeyd edirlər. Bu İsmailiyyə firqəsindən olan məşhur Əbu Abdullah əş Şii-nin künyəsidir. Xatib əl Bağdadi əksər sufilərin Həllacı təsəvvufə nisbət etmədiyini, əksinə onu zındıq hesab etdiklərini yazır. Həmçinin, babasının məcusi olaraq, Hindistanda sehr öyrəndiyini və onunla bağlı və s. təfərrüatları öz kitabında qeyd edir.[4]

Həllac hicri 309-cu ildə edam edilən zaman, artıq Fatimi propaqandası və fitnəsi ətrafa yayılmışdı. Bu dəvətin təbliğatçısı İsmailiyyə firqəsindən olan Qərməti Əbu Tahir əl Cənnabi hicri 311-ci ildə Basra şəhərini, iki il sonra Kufə şəhərini işğal etmişdi. Həllacın ölümündən 9 il sonra o Məkkəni işğal etmiş, orada qətliam törətmiş və Kəbədən qara daşı sökərək, Bəhreynə aparmışdı. Qərmətilərin başında olmuş Əbu Səid əl Qərməti Həllacın ən yaxın dostu və silahdaşı hesab olunurdu. [5]

İbn ən Nədim deyir: **"Həllac hökmdarlara şiə, xalqa isə sufi məzhəbindən olan kimi görünürdü və Allahın onda hülul etdiyini iddia edirdi."**[6]

---

[1] səh 368

[2] Eyni yerdə

[3] Qazi ət Tənuhi, "Məşvərul mudahara" səh 86

[4] Bağdadi, "Tarixi Bağdad", 8/112-141; ibn Kəsir, "əl bidayə vən nihayə", 11/132-144; ibn Əsir, "əl Kamil fi Tarix" 8/126-128

[5] Fəriduddin Attar, "Təzkiratul-Evliya", c.2,səh 109

[6] İbn ən Nədim "Fihrist" səh 269

Bütün bunlara baxmayaraq, sufi şeyxlərindən olan hicri 371-ci ildə ölən Muhammməd ibn Həfif Həllac haqqında "o Rəbbani bir alimdir" dediyini görürük.[1]

Həllacın söylədiyi batini fikirlər, etdiyi iddiaların keçmişdən bugünə qədər yaşadığını müşahidə etməkdəyik. Həllac və şiə Əbul Xəttabda olan hülul iddialarını araşdırdığımız zaman ikisində də çox bənzərliklər olduğunu görmək olar. Həllac dua edərkən deyirdi: **"Ey ilahların İlahı və rəbblərin Rəbbi! Ey yuxu və mürgü almayan! Qulların mənə görə yoldan çıxmaması üçün nəfsimi mənə geri ver. Ey özü mən və özü mən olan! Mənim insanlığımla sənin zatın arasında hədis və qədim olma xaricində heç bir fərq yoxdur."**[2]

Həllacın yanında tapılan bir kağızda **"Rəhman və rəhim olandan filankəs oğlu filana"** yazısı tapılmışdı. Bütün bunları rafizi Əbul Xəttabın məzhəbi ilə tutuşdursaq, ortadakı bənzərlik aşkar olmuş olar. O, Allahın Hz Əlinin və imamların ruhunu yaradaraq, aləmlərin işini onlara həvalə etdiyini, onların da yeri və göyü yaratdığını iddia edirdi. Ona görə də rukuda "Subhanə rabbiyyəl azim", səcdədə "Subhanə rabbiyyəl ala" deyirik. Çünki, Hz Əli və övladlarından başqa ilah yoxdur. Ən böyük İlah isə onlara aləmlərin idarəsini həvalə etmiş İlahdır deyirdi."[3]

Şübhə yox ki, bu sözlərlə Həllacın sözləri eyni qaynaqdan gəlir və o Əbul Xəttabla eyni inancı və eyni hədəfi bölüşürdü. Bu müsəlmanları həqiqi etiqaddan uzaqlaşdırıb, şirkə aparmaq və beləcə müsəlman dövlətini məhv etmək deməkdi. Bütün bunlardan aydın olur ki, hicri 3-cü əsrdə sufilərlə şiələr etiqad və məzhəb olaraq eyni yolda idilər. Həllac Cüneyd Bağdadi və Şibli kimi 3-cü əsrdə yaşamış sufi şeyxlərinin sirdaşı və yoldaşı idi. Cüneyd Bağdadi edam edilərkən, Həllaca **"sən rububiyyətin sirrlərini ifşa etdiyin üçün Allah səni dəmirlə cəzalandırdı"** şəklində yazı yazmışdı. Şibli isə belə deyirdi: **"Mən və Həllac bir idik. Lakin, o danışdı, mən isə susdum."** [4]

Göründüyü kimi sufilərlə şiələr inanc və məqsəd olaraq bir-biri ilə eyni hədəfi paylaşırdılar. Hər ikisi də hülul inancına sahib idilər. Amma, Allahın ruhunun kimdə hülul (təcəlli) etdiyi məsələsində ixtilaf etmişdilər. Ortaq hədəfləri müsəlmanların inanclarını pozmaq, İslam dövlətini yıxmaq, müsəlmanların birliyini pozmaq idi. Tarixdən və müasir dövrümüzdən çoxlu misallar çəkmək olar ki, sufi təriqətləri bütün dövrlərdə zalım rəhbər və imperialsist güclər qarşısında hər zaman təzim göstərmiş, sadə xalq kütlələrini onlara itaət etməyə çağırmış, sadə müsəlmanları isə ancaq öz nəfslərini təzkiyyə etməklə məşğul olmağa dəvət edirdilər. İslam yolundan sapmış sufi təriqətləri tarixdə bütpərəst zəncilərdən daha çox işğalçılara boyun əymiş, onlarla əməkdaşlıq etmişdilər. Afrikada Fransız işğal güclərinin rəhbəri Filip Foundacy deyir: **"Afrikadakı idarəçi və əsgərlərimiz dini təriqətləri yaymağa daha çox məcbur olmuşdular. Çünki, Bilido, Hacun adı ilə**

---

[1] "Tabakatus Sufiyyə", səh 307

[2] "Ərbau Nususin Tətalluku bil Həllac", səh 59

[3] "İtikadətu Fırakil Muslimin vəl muşrikin" səh 57

[4] "Tarixi Bağdadi", c.8, səh 121

tanınan bir çox sufi təriqəti zənci bütpərəst təriqətlərdən daha çox Fransız idarəçilərə qarşı itaətkar idilər və bizlə əməkdaşlıq edirdilər."[1]

Əlcəzair, Tunisin Fransa tərəfindən işğal edilməsinə tərəfdar olan və onlarla yaxından əməkdaşlıq edən sufi təriqətlərindən biri də Ticani təriqəti olub.

Bu təriqətin banisi Əhməd ət Ticani "Cəvahirul Məani" kitabında yazır**: "Kafir, mücrim, facir və zalim olan hər kəs əslində Allahın əmrini yerinə yetirir və onun əmrindən xaric heç bir şey etmirlər."**[2]

Bu kitabın digər səhifəsində o yazır: **"Arif bir şeyx öz bədənindəki ruhunu başqa bir bədənə yönləndirib, onu istədiyi şəkildə idarə edə bilər."**[3]

Bu sufi təriqətləri fransızlar Suriyanı işğal edərkən, onlara qarşı heç bir addım atmamış, əksinə onlarla din naminə əməkdaşlıq etmiş, onları xalqa sevdirməyə çalışmışdılar. Ona görə bütün dövrlərdə və hər bir işğal bölgəsində imperialist dövlətlər sufi təriqətlərin güclənməsində və İslamı təmsil etmələrində maraqlı olmuşlar. Şufiliklə şiəlik arasında olan əlaqə və oxşarlığı qısaca belə sadalaya bilərik: Batini, elm, məsumiyyət, kəramət, hırka, təqiyyə, hülul və ittihad.

Batini elm

Cüneyd Bağdadi birbaşa özünə "lədun elm" i verildiyini deyirdi"[4]
Bu elm sufilərin onlara görə sahib olduqları və qəbul etdikləri xüsusi bir elmdir. Çünki, sadəcə özlərinin Allah əhli olduqlarını, Quran və hədislərdə olan batini elmi sirrlərin onlara verildiyini iddia edirdilər. Bütün sufi kitablarında və ərbabında bu ixtilafsız qəbul edilən bir məsələdir və bu fikir onlara şiələrdən keçmişdir.

Məsumiyyət

Şiələrdə olan məsum imam inancı olduğu kimi sufiliyə də sirayət etmişdir. Sufilər bu məsumiyyəti şeyxlərinə, övliya dedikləri böyüklərinə nisbət edirlər. Necə ki, imam Cəfər Sadiqin məsum olduğunu iddia edən ilk adam Kufəli şiə kəlamçısı Hişam ibn Həkəm olmuşdur. Sufilərin məşhurlarından Kəlabazi deyir: **"Peyğəmbərləri məsum qılmada və övliyalarını fitnədən mühafizə etmədə Allahın lütfü sayılmayacaq qədər çoxdur."**[5]

Görüldüyü kimi Kəlabazi məsumiyyəti bu şəkildə ifadə edir. İbn Ərabinin sözləri də bunu belə açıqlayır: **"Batin (gizli) imamın şərtlərindən biri də onun məsum olmasıdır. İmamdan başqa heç kəsin belə məsumiyyəti ola bilməz."**

---

[1] "əl İstimarul Fransi fi Afrika əs Sevda",səh 52
[2] "Cəvahirul Məani" 221
[3] eyni yerdə, 16
[4] "əl Luma",səh 9-12, Muhammməd Fəxr şakfə, "ət Tasavvuf Bəynəl Hakki vəl Halk", səh 134-140
[5] "ət Taarruf", səh 99

Eyni şəkildə "Cəlaləddin Rumi də Həllacın məsum olduğunu demişdir. Çünki, ona görə **"Allahın əmri sufinin qəlbində yer tapır və Allah istəmədikcə sufi istəyə bilməz."**[1]

Rumi Həllacı böyük hörmətlə xatırlayar. O "Məsnəvi" də deyir: **"Mən haqqam, sözü Mənsurun dodağında nurdur," mən Allaham sözü isə Fironun dodağında yalandır."**[2]

İbn Ərabi fəlsəfəsini yaradarkən, şiə anlayışını olduğu kimi əxz etmişdir. Mehdilik mövzusunda "Ənkau məğrib" adında bir kitab yazmışdır. Həmçinin, "Futuhatu məkkiyyə" kitabını da şiələrin fikirləri ilə doldurmuşdu. "Həqiqətu Muhəmmədiyyə" fikrini şiələrdən almış, sonra "Vəhdətul vucud" prinsipini bu fikrə əsasən yaratmışdır. Həmçinin, şiələrin nur düşüncəsini fəlsəfəsinin təməli etmiş və övliyanın Muhəmmədin nurundan yaranan nurani varlıqlar olduğunu söyləmişdir. İbn Ərabi şiə məzhəbini yaxından tanıyırdı. Beləki, şiələrin bir çox mühüm iddialarını qeyd etdikdən sonra onları tənqid etmiş, zahir imamın deyil, əslində gizli imamın məsum olmalı olduğunu iddia etmişdi. İbn Ərabi Hişam ibn Həkəmin nübuvvətdən çıxartdığı məsumiyyət inancını zahir imamdan gizli imama nisbət etmişdi. Bəzi tədqiqatçılar ibn Ərabinin təsəvvuf fikirlərini şiəliyə keçirtdiyini qeyd edirlər.

İbn Ərabinin şiəliyə yaxınlığını bu sözləri də təsdiq edir. **"Şübhəsiz ki, Hz Əli gizli elm sahiblərindəndir. Başqalarının bilmədiklərini Allahdan ilham yolu ilə alan adam idi."**[3]

Kəramət

Sufilərin xarakterik xüsusiyyətləri kəramətə sarılmalarıdır. Övliyalar üçün kəramət dedikləri ilə şiələrin imamları üçün qəbul etdikləri möcüzələr arasında çox bənzərliklər vardır. Bunun misalları olduqca çoxdur. Nümunə üçün "Mənakibul kulub fi muamiləti alləmil ğuyub", "Şifaul alil tərcumətul qavlil cəmil", "Ənvərun qudsiyyə fi mənakibin nakşibəndiyyə" və s. kitablara baxmaq olar. Bu sahədə onlar ümumiyyətlə din, ağıl və məntiq ölçüsü tanımırlar.

Təqiyyə

Bilindiyi kimi təqiyyə şiə məzhəbinin əsas prinsiplərindəndir. Bu təhlükə olması halında qorxudan həqiqətləri gizlətmək, susmaq və inandığının əksini deməkdir. Sufilər də bu prinsipi mənimsəmiş, amma bunu çox yaymamışlardı. Hülul inancına dair təhlükə hiss etdiklərində bu etiqadı insanlardan gizlətmişlər. Misal olaraq, Cüneyd əl Bağdadi təqiyyə edər və bununla gizlənərdi.

---

[1] Əhməd Əflaki "Mənakibul arifin" səh 302

[2] "Məsnəvi" c.2, beyt 1264

[3] "Futuhatu məkkiyyə"c.1,səh 260

Şərani yazır: "**Cüneyd əl Bağdadi deyirdi: "Allahın övliyalarını və xalis qullarını xalqın yalançı hesab edib, onları küfr və zındıqlıqda ittiham etməsini arzu edirsiniz?!"**[1]

Şərani yazır ki, "**o xalqın məzəmmətindən qorxduğu üçün ömrü boyu "fəqih" maskası altında yaşamışdır.**[2]

Təqiyyə baradə məsələ hicri dördüncü əsrin əvvəllərinə qədər çoxlarına qaranlıq qaldı vəya üzərindəki pərdə hələ yırtılmamışdı. Yalnız Həllac və onun ilahlığına inanan bir qrup insanlar həbs olunub, mühakimə olunanda məsələnin mahiyyəti və acı durum üzə çıxdı. Onlar Həllacın ölüləri diriltdiyinə inandıqlarını etiraf etmiş, Həllac isə təqiyyə edərək, bunu inkar etmişdi. Halbuki, Şibli də təqiyyə edirdi və o belə deyirdi: **"Mən və Həllac bir idik. Lakin, o danışdı, mən isə susdum."**[3]

Hırka (əba)

Sufilər Hz Əlinin hırkanı Həsən əl Basriyə geydirdiyini və ondan təriqətə bağlı qalacağına dair söz aldığını, onun da hırkanı Cuneyd əl Bağdadiyə verdiyini iddia edirlər. İbn Xəldun bu baradə yazır:

"**Bu bir daha göstərir ki, təsəvvüf (sufilik) şiəlik ilə bağlıdır. Hırka məsələsini əshabdan yalnız Hz Əliyə nisbət etmələri şiəlikdən xəbər verir.**"[4]

Təriqət

Təriqətlərin şiələr ilə əlaqəli olduğunu bütün mənbələr qeyd edir. Təriqət şeyxlərinin çoxu əhli beytə nisbətlərinin olduğunu iddia edir və təsəvvüfün Hz Əli yolu ilə gəldiyini iddia edirdilər. Eyni ilə şiələr imamət və məsumiyyət kimi xüsusiyyətlərin Hz Əli və onun soyu ilə bağlı olduğunu iddia edirlər. İmamətdə olduğu kimi təriqətdə də şeyxlik atadan oğula keçir. Başda Bektaşi təriqəti olmaqla əksər təriqətlər şiələrin bu prinsipini mənimsəyiblər. Bektaşi təriqətinin on iki imam inancına etiqad etdikləri bilinən bir məsələdir.

Hülul və ittihad

Bu inancın şiələrdə erkən dövrlərdə yaranması və qulat şiələrin bariz xüsusiyyətlərindən olması bilinən bir həqiqətdir. Səbəiyyə firqəsinin bu işə ilk qol qoyduğu da məlumdur. Batiniyyə, Nusayriyyə, İsmailiyyə kimi şiə firqələrində bu

---

[1] "Təbaqatul kubra" 1/10

[2] eyni yerdə

[3] "Tarixi Bağdadi", c.8, səh 121

[4] ibn Xəldun, "Müqəddimə" 233

etiqad əsas inanclardandır. Bu etiqad şiələr vasitəsi ilə təsəvvüfə keçmiş, bəzi yeniliklər etməklə bunu təriqətlər özlərinə prinsip seçmişdilər. Həllac, Bistami, Suhrəverdi, ibn Ərabinin və onların yolu ilə gedənlərin "Vəhdəti vücud" inancı "hülul və ittihad" anlayışının başqa bir adıdır. Ticani təriqətinin şeyxlərindən olan

Əhməd ibn Hərəzm deyir: **"Zahirdə Allahdan başqasına ibadət və səcdə edən hər kəs əslində ancaq Allaha ibadət və səcdə etmiş sayılır. Çünki, o cisimlərə təcəlli (hülul) edən Allahdır. Bütün məbudların hamısı Allaha ibadət və səcdə etməklə ondan qorxurlar. Əgər Allah qulların bu məbudlara ibadət etməsi üçün onlara təcəlli etməsə idi, bütün bu məbudlar bir anda məhv olardılar. Ona görə də bütlərə ibadət edənlər əslində yalnız Allaha təzim etmiş və ona səcdə etmiş sayılırlar."**[1]

Nəticə olaraq, biz də ibn Xəldun kimi sufilərin İslama yad olan bu sistemi şiələrdən əxz etdiyini qeyd etmək istəyirik. Sufilər Hz Əlini təsəvvufün imamı saydıqları kimi qulat şiələr də onu öz məbudları hesab etmişdilər.

[1] Əhməd ibn Hərəzm, "Cəvahirul Məani", c. 1, səh 184-185